

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 yanvar 2024-cü il №7 (2818) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, Hulusi Akar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş edib.

Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyini və bunun bir örnək olduğunu vurğulayıb. Qonaq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rol oynadığını deyib.

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirib.

Söhbət zamanı ötən il sentyabrın 19-20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulanıb.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını deyib, ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd edib və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olunub, bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırılıb. Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, hər iki ölkənin silahlı qüvvələri tərəfindən birgə keçirilən hərbi təlimlərin əhəmiyyəti xüsusilə qeyd edilib.

Sonda Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

## Azərbaycan Ordusunda yeni tədris dövrü başlayıb





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yeni tədris dövrünün başlanması ilə əlaqədar tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, keçirilən tədbirlərdə döyüş bayrağı sıra meydanına gətirilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar, müdafiə nazirinin qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması ilə bağlı əmr və tələbləri, eləcə də digər məsələlər şəxsi heyətin diqqətinə çatdırılıb. Yeni tədris dövründə keçirilən təlim və məşqlərin keyfiyyətinin və intensivliyinin artırılmasının vacibliyi qeyd edilib.

Bildirilib ki, qabaqcıl metodlardan və yüksək texnologiyalardan istifadə etməklə qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə cari tədris ilində əsas məqsəd bölmələrin idarə edilməsində operativliyin artırılması, onlar arasında uzlaşmanın təşkili, hərbi qulluqçuların peşəkarlığının daha da yüksəldilməsi və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Qeyd edək ki, yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrin döyüşə hazırolma vəziyyətinin yoxlanılması üzrə tədbirlər həyata keçiriləcək, həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edən bölmələr təlim mərkəzlərinə və ümumqoşun poliqonlarına hərəkət edəcəklər.

* * *

Yeni tədris ilinə hazırlıq zamanı hərbi hissələrdə sıra baxışları keçirilib, bölmələrin maddi-tədris bazaları, təlim döyüş texnikaları, ştat kateqoriyasına uyğun olaraq şəxsi heyətin silahı və döyüş təchizatı yoxlanılıb.

Yeni tədris ilinin başlaması ilə əlaqədar birləşmə və hərbi hissələrdə keçirilən təntənəli mərasimlərdə çıxış edənlər ötən tədris ilində ümumilikdə planlaşdırılmış tədbirlərin tam həcmdə icra olunduğunu qeyd edib və yeni tədris ilində keçirilən məşğələlərdə əsas diqqətin hərbi qulluqçuların bilik və bacarıqlarının daha da artırılmasına, ordumuzun arsenalında olan müasir silah, texnika, habelə digər döyüş vasitələrinin düzgün istismarı və effektiv tətbiqi qaydalarının öyrədilməsinə yönəldilməli olduğunu bildirərək, yeni tədris ilində şəxsi heyətə uğurlar arzulayıblar.

Sonra tribuna önündən təntənəli keçid olub.

# Müdafiə naziri Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb





*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri cənab Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan general-polkovnik Zakir Həsənov sabiq həmkarını yenidən ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Nazir Azərbaycan və Türkiyə prezidentlərinin dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın yüksələn xətlə inkişafında mühüm rol oynadığını xüsusi vurğulayıb.



Cənab Hulusi Akar isə öz növbəsində hər zaman olduğu kimi, Azərbaycana bugünkü səfərindən də məmnunluq ifadə edib və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasının xüsusi əhəmiyyətə malik olduğunu bildirən deputat bu cür səfərlərin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

# ƏÜO-da gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının növbəti buraxılışı olub





*Əlahiddə Ümumqoşun Orduda növbəti gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Polkovnik Mahmud Əmirov kurslar zamanı keçirilən məşğələlərdən danışıb və məzunları kursları uğurla başa vurmaları münasibətilə təbrik edib.

Məzunlar adından çıxış edən Şahin Cəfərov kursları əvvəl bitirən məzunlar kimi şərəflə xidmət edəcəklərinə, növbəti kurslarda iştirak edəcək gənclərə nümunə olacaqlarına söz verib.



Məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordu Komandanın müavini general-mayor Məhəmməd Həsənov

bildirib ki, bu gün dünyanın güclü orduları sırasında olan Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ötən ili böyük uğurlarla başa vurub.

Qeyd olunub ki, 2024-cü ildə də ölkəmizdə ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsi, maddi-texniki bazanın inkişaf etdirilməsi, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılması prioritet vəzifələr kimi müəyyənləşdirilib. Bu da hərbi qüdrətimizin daha da artmasına şərait yaradacaq. Əminliklə deyə bilərik ki, Əlahiddə Ümumqoşun Orduda da bu istiqamətdə tədbirlər həyata keçiriləcək, bundan sonra da muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsi və müdafiə potensialının daha da gücləndirilməsi üçün lazımi addımlar atılacaq.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub. Sonda xatirə şəkli çəkdirilib.

## "Əsas məqsədimiz bölgədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunmasıdır"

Azərbaycan və Türkiyə şəhidləri bizim qardaşlığımızın, birliyimizin, Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, bir millət olduğumuzun çox önəmli sübutlarıdır. Şəhidlərimizin etdikləri böyük qəhrəmanlıq və fədakarlıqdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Türkiyə Böyük Millət Məclisinin Milli Müdafiə Komitəsinin sədri Hulusi Akar söyləyib.

O, bildirib ki, Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" kimi 44 günlük müharibədən sonra da "Tək ordu, tək yumruq və tək ürək" olaraq əməkdaşlığı inkişaf etdirir, lazımi layihələri həyata keçirir.

Azərbaycan və Türkiyənin birgə təlimlər keçirdiyini, müdafiə sənayesi sahəsində sıx əməkdaşlıq etdiyini xatırladan H.Akar deyib: "Əsas məqsədimiz bölgədə sülhün, sabitliyin və əməkdaşlığın təmin olunmasıdır. Bu baxımdan biz Azərbaycanın Ermənistana etdiyi sülh təklifinin İrəvan tərəfindən qısa zamanda qəbul olunmasına və tezliklə bölgəyə sabitliyin gəlməsinə çalışırıq".

O, əlavə edib ki, bəzi ölkələr Ermənistana proksi-dövlət libası geyindirmək istəyirlər. Əgər Ermənistan onların dediklərinə əməl edərsə, necə ki, 44 günlük savaşda çox ciddi zərər gördü, bundan sonra da eyni vəziyyətlə qarşılaşa bilər.

*Təlim*

# Öyrənə-öyrənə püxtələşirlər





Təlim də öyrətmə, öyrənmə prosesidir, öyrədilmişlərin, təcrübi vərdişlərin təkmilləşdirilməsidir. Bütün qoşun növlərində belədir. Ona görə də döyüş hazırlığının hər iki amili (nəzəri biliklərin aşılanması, öyrədilməsi, təcrübi vərdişlərin mənimsədilməsi) biri digərini yüksək səviyyədə tamamlamaqla aparılır. Azərbaycan əsgəri silahlanmasında olan bütün silahların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyib. 44 günlük Vətən müharibəsində qazanılan qələbəni həm də Azərbaycan əsgərinin bu qadirliyi təmin etdi. Vətən müharibəsində Azərbaycan Ordusunun müvafiq qoşun növlərinin hamısının şəxsi heyətinin döyüş hazırlığına, qətiyyətinə, məsuliyyətinə görə həm də düşmənin döyüş təyyarələrinin, helikopterlərinin, PUA-larının fəaliyyəti fəaliyyətsizlik həddində məhdudlaşdırılmışdı...

Tarixi Zəfər qazanıldı, əməliyyat tədbirləri ilə ərazi bütövlüyümüz tam bərpa edildi, Azərbaycan əsgəri Ali Baş Komandanın sərkərdəliyi ilə səngərləri sərhədlərə köçürdü.

İşğaldan azad edilmiş ərazilərdə xidmət edən hərbçilərimiz deyirlər ki, biz qalib əsgərlərin davamçısı olmağın məsuliyyəti ilə xidmət edirik.

- Döyüşdə hava hədəfləri böyük gücə malikdir. İkinci Qarabağ müharibəsində döyüş təyyarələrimiz də, helikopterlərimiz də, PUA-larımız da düşmənin neçə-neçə komanda və dayaq məntəqəsini dağıtdı, onlarla döyüş texnikasını, minlərlə döyüşçüsünü məhv etdi, hava hücumundan müdafiə vasitələrimiz düşmənin onlarla hava hədəfini vurdu, - mayor Sahib Hacırəhimov belə dedi.

Hərbi hissədə növbəti ixtisas hazırlığı təlimidir. Əsgərlər təlimdə fəal iştirak edirdilər. Fəallıq öyrənmə istəyidir. Bu qoşun növündə döyüş hazırlığının əsası bu mövzu üzrə aparılır. Əsgərlər silahlanmamızda olan "İqla" tipli zenit-artilleriya silahının atış xüsusiyyətlərini, atma - döyüş metodikasını bir daha təkrarlayırlar. Kiçik çavuş Şahmalı Cəfərov atıcı-zenitçilərə nəzəri bilikləri bir daha xatırladır, şərti hədəfə nişan almanın metodikasını bir daha izah edirdi:

- Düşmənin nisbətən alçaqdan uçan hava hədəfləri bu silahla məhv edilir. Təcrübəli atıcının atışı hədəfdən yayınmır. Atıcı-zenitçilər üçün ən gərəkli diqqətdir, səbirdir, atış anını düzgün müəyyənləşdirmədir, məsuliyyətdir. 2016-cı ildə indi də yaddaşlarda yaşayan bir hadisə olub. Döyüşdə baş vermiş bu hadisə həmişə zenitçilərimizə sevgilərlə xatırlanıb. Atıcı-zenitçi həyəcanla demişdi: Vur, komandir, vur! Komandir vurmuşdu, düşmənin uçan hədəfi "İqla" ilə məhv edilmişdi. Bu hadisəni bu hərbi hissənin atıcı-zenitçiləri də qürurla xatırlayırlar.

Təlimdə qısamüddətli fasilədə çavuş Rəşad Rəhimov xatırladır: Ağdamın Kəngərli kəndi yaxınlığında Ermənistanın 2 Mi-24 döyüş vertolyotu qəflətən istiqamətini dəyişmiş, ordu hissələrimizin mövqelərini atəşə tutmağa cəhd göstərmişdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçumuz manqa komandiri İlkin Muradov helikopterlərdən birini "İqla" ilə vurmuşdu. Bir atışla düşmənin bir helikopteri, üç hərbi qulluqçusu məhv edilmişdi. Bu gün əsgərlərin təlim keçdikləri həmin silahdı. Onda düşmənin hava hədəflərini məhv edən bu qüdrətli silahla Vətən müharibəsində Azərbaycan əsgəri düşmənin neçə-neçə hava hədəfini, bu sıradan iki "SU-25" döyüş təyyarəsini də vurmuşdu.

Atıcı-zenitçilər kiçik çavuşu diqqətlə dinləyir, göstərişləri dəqiq yerinə yetirirdilər. Təlim də öyrətmə prosesidir. Təlim ifadəsinin bir çaları da məşqdi. Müntəzəm, sistemli məşqlər həmişə uğur gətirdiyi kimi, davamlı, planlı təlimlər də döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin edir. Kapitan Hümbət Cəfərov hər təlimi şərti düşmən üzərində qələbə qazanmağa hazırlayan döyüş hazırlığı olduğunu dedi və qeyd etdi ki, təlim həm döyüş hazırlığını yüksəldir, həm də psixoloji hazırlığı. Bu baxımdan əsgərlər təlimlərdə böyük məsuliyyətlə iştirak edirlər, bilikləri dərinləşdikcə hərbi ixtisasına marağı, sevgisi daha da artır. Hərbi hissəmizin atıcı-zenitçiləri də belə püxtələşiblər. Onlar bilirlər ki, döyüşdə hər atışın dəqiqliyi düşmənə həm böyük hərbi, həm də psixoloji zərbə deməkdir...

- 2020-ci ilin sentyabrına kimi əsgərlər də döyüşlərin başlanmasını arzulayırdılar. Müharibə başladı. Ordumuz tarixi Zəfər qazandı, 2023-cü ilin sentyabrında ərazi bütövlüyümüzü tam bərpa etdi. Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qorumağa, istənilən hərbi cəhdin qarşısını almağa hazırdır, qadirdir. Bu hərbi hissənin digər hərbi qulluqçuları kimi atıcı-zenitçiləri də sədaqətlə, məsuliyyətlə xidmət edirlər, - kapitan Eldar Nərimanov belə dedi. Əsgərlərin baxışlarında dönməz qətiyyət gördüm. Atıcı-zenitçilərin ixtisas təlimi vətənpərvərlik ovqatı ilə yekunlaşdı...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Hulusi Akar: Azərbaycan Ordusunun işğala son qoyması tarixi əhəmiyyət daşıyır

Yanvarın 29-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvlərinin Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli müdafiə komissiyasının sədri Hulusi Akarın başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşü olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov dost və qardaş ölkələrimiz arasında münasibətlərin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı əsasında inkişaf etdiyini deyib.

Komitə sədri vurğulayıb ki, Türkiyə dövləti və xalqı torpaqları Ermənistan tərəfindən işğala məruz qalan Azərbaycanın haqqını həmişə və hər yerdə müdafiə edib, xüsusən də bu işğala son qoyan 44 günlük Vətən müharibəsinin ilk anlarından etibarən bizə hər cür siyasi, mənəvi və diplomatik dəstəyini göstərib. İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərində Türkiyənin yaxından iştirakını məmnunluqla vurğulayan Ziyafət Əsgərov Hulusi Akarın bu səfərinin əlaqələrimizin genişləndirilməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

TBMM-in Milli müdafiə komissiyasının sədri Hulusi Akar dost və qardaş ölkələrimiz arasında münasibətlərin inkişafı istiqamətində əldə olunan uğurlardan bəhs edib. O deyib ki, Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanındadırlar. İkinci Qarabağ müharibəsi və Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı biz bir daha bunun şahidi olduq.

Hulusi Akar bildirib ki, rəşadətli Azərbaycan Ordusunun işğala son qoyması və ölkənin suverenliyini tam təmin etməsi tarixi əhəmiyyət daşıyır. O, bu tarixi hadisənin Azərbaycanın qarşısında açdığı perspektivlərdən danışıb, bu baxımdan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının region ölkələrinin rifahına və firavanlığına xidmət edəcəyini vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Türkiyənin bundan sonra da daim bir-birinin yanında olacağı vurğulanıb, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdirilməsi, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Çətin relyefli və dağlıq ərazilərdə bölmələrin hərtərəfli təminatı fasiləsiz təşkil olunur






*<u>Kəlbəcər və Laçın rayonlarının çətin relyefli və dağlıq ərazilərində dislokasiya olunan hərbi hissələrin xidməti-döyüş fəaliyyətinin fasiləsiz təşkili məqsədilə həyata keçirilən zəruri tədbirlər davam edir.</u>*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis bölmələrinin digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində rabitə və kommunikasiya xətlərinin sərt iqlim şəraitində daim işlək vəziyyətdə saxlanılması və bölmələrin hərtərəfli təminatının fasiləsiz həyata keçirilməsi məqsədilə yolların qar örtüyündən təmizlənməsi prosesi növbəli şəkildə sutkaboyu icra olunur.



# "Yenilməz sərkərdə" adlı xatirə tədbiri keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xətai rayonu 269 nömrəli tam orta məktəbdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 114-cü ildönümünə həsr olunmuş "Yenilməz sərkərdə" adlı xatirə tədbiri keçirildi. Məktəbin müəllim və şagird kollektivinin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*






Xatirə tədbirini giriş sözü ilə açan H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı baş leytenant Günel Dadaşova yenilməz sərkərdənin şanlı döyüş yolundan, Böyük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələrindən danışaraq, geniş məlumatları iştirakçıların diqqətinə çatdırdı. Azərbaycan xalqının qəhrəman oğlu, əfsanəvi döyüş generalı Həzi Aslanovun şərəfli ömrünün hər zaman gəncliyə örnək olduğunu dedi: "Ulu Öndər Heydər Əliyev yenilməz sərkərdəmiz haqqında söyləyirdi ki, Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. Həzi Aslanov öz qəhrəmanlıq və cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır. Bəli, bu sözlərlə zamanında Ulu Öndər yenilməz sərkədəmizə tarixi qiymətini verib".

Baş leytenant Günel Dadaşova çıxışına davam edərək bildirdi ki, dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə general Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirib və hərb salnaməsində yeni parlaq səhifələr açıb. "Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsi olub. Xalqımızın şanlı oğlu Həzi Aslanov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və rəşadətinə görə üç dəfə Qırmızı Bayraq, 2-ci dərəcəli Suvorov və Aleksandr Nevski ordenlərinə, iki Qırmızı Ulduz medalına və digər təltiflərə layiq görülüb. 1969-cu ildə Lənkəranda Həzi Aslanovun ev muzeyi açıldı, 1983-cü il mayın 8-də isə Lənkəran şəhərində onun böyük heykəli ucaldıldı. Bakıdakı küçələrdən və metrostansiyalardan biri Həzi Aslanovun adını daşıyır. Lənkəran, Bakı və Volqoqradda onun adına məktəblər fəaliyyət göstərir. Xəzərin sularında tankerlərdən birinə əfsanəvi qəhrəmanımızın adı verilib. Həzi Aslanov haqqında neçə-neçə sənədli və bir bədii film çəkilib, məqalələr, kitablar və romanlar yazılıb".

Çıxışının sonunda zabit vurğuladı ki, bu gün bizim xidmət etdiyimiz Ordu İdeoloji və Mədəniyyət Mərkəzi görkəmli sərkərdəmizin adını daşıyır. "Bu da təsadüfi deyil. Vaxtilə Həzi Aslanov hərbi təhsil alarkən kursant yataqxanası olan bu binada qalmışdır. Şərəfli döyüş yolu keçən tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov heç vaxt unudulmayacaq, tarix bu adı Vətənə sədaqətli xidmət nümunəsi kimi əbədiyyən yaşadacaqdır."

Qeyd edək ki, ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev hər il mayın 9-da Həzi Aslanovun məzarını ziyarət edər, onun ailə üzvləri ilə görüşər və bununla da Qələbə Günü münasibətilə keçiriləcək tədbirlərə start verərdi.



Hər il 9 May - Qələbə Günü Ulu Öndərin ənənəsini davam etdirərək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Şəhidlər xiyabanında müharibə iştirakçıları, veteranları ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarüstü abidəsi önündə onun ailə üzvləri ilə görüşür. Xalqımızın qəhrəman oğlunun xatirəsi hörmət və ehtiram hissi ilə yad edilir.

Rüfət Məmmədov adına 269 nömrəli tam orta məktəbin direktoru Aygün Əzizova çıxışı zamanı gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında yenilməz sərkərdə Həzi Aslanovun şanlı döyüş yolunun öyrənilməsinin əhəmiyyətini xüsusi vurğuladı və tədbirin təşkilatçılarına minnətdarlığını ifadə etdi.

Daha sonra sərkərdənin şərəfli həyat və döyüş yolundan bəhs edən film nümayiş olundu.

Sonda məktəbin istedadlı şagirdləri və H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən mahnılar və marşlar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# "Torpaqlarımızın hər qarışı bizim üçün doğma və əzizdir"

Baş gizir Vasif Məmmədov 2 dekabr 1992-ci ildə Qusar rayonunun Ukur kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra Vasif ana Vətəninə olan övladlıq borcunu ödəmək üçün əsgəri xidmətinə başladı. İlk gündən etibarən komandirlərinin öyrətdiklərini və hərbin sirlərini mənimsəməyə çalışdı. Çox vaxt keçmədən artıq təcrübəli əsgər kimi formalaşdı. Bunun nəticəsidir ki, qısa müddət ərzində komandirlərin və əsgər yoldaşlarının hörmət və rəğbətini qazandı. Xidmətini layiqincə başa vurduqdan sonra tərxis oldu. Yalnız ordu sıralarında keçirdiyi xoş günləri heç unutmadı. Çünki Vasif hərbə xüsusi hörmət bəsləyirdi. Bu səbəbdən də o, 2015-ci ildə rəşadətli Azərbaycan Ordusuna qatılaraq, gizir kimi xidmətə başladı. Xidmətə isə yenidən qayıtmağının səbəbi, gələcək döyüşlərdə xain erməni əsgərindən qisas alanların sıralarında olmaq istəyi idi.

Gizir kimi xidmətə başladığı ilk gündən etibarən də məsuliyyətli və təcrübəli oldu. Bacarığı ilə komandir heyətinin rəğbətini qazandı. Nümunəvi xidmətinə görə komandanlıq tərəfindən fəxri fərmanlar və qiymətli hədiyyələrlə mükafatlandırıldı. Üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələn gizir V.Məmmədov Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan Vətən müharibəsində yaxından iştirak etdi. Döyüşlər başladığı andan etibarən silahdaşları ilə birgə işğalçılardan qisas almağa başladı. Onlar qorxu bilmədən irəliləyib, mənfur düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksələn həmvətənlərimizin qanını yerdə qoymadılar. Haqq savaşımız başladığı andan Vasif qarşıya qoyulan bütün döyüş tapşırıqlarının öhdəsindən xüsusi peşəkarlıqla gəldi. Cəsur igidimiz Tərtər rayonunun Suqovuşan kəndi uğrunda



cəsarətlə döyüşdü. Hər bir hərbçinin olduğu kimi, gizir Məmmədovun da amalı doğma Qarabağımızı işğalçılardan azad etmək idi. Cəmi 44 gün ərzində çətin də olsa, amalına çatdı. Məmmədov Vasif Xəncəl oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə aparılmış döyüş əməliyyatlarında iştirak edərək göstərdiyi igidlik və mərdlik nümunəsinə görə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

İştirakçısı olduğu döyüşlərdən söz açan natiq dedi ki, 2020-ci il 27 sentyabrda erməni təxribatı nəticəsində müharibənin başlandığını bilən kimi döyüşə yollandıq. Bölüyümüz Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində mövqe tutmuşdu. İlk günlərdən qəsbkarlara sarsıdıcı zərbələr vurduq. Nə qədər müqavimət göstərsələr də, biz erməni silahlı birləşmələrini Suqovuşan kəndindən, həmçinin bir neçə böyük strateji əhəmiyyətli yüksəklikdən qovduq. Torpaqlarımızı erməni işğalçılarından azad etdik.

- Vətən torpaqlarının keşiyində dayanmaq kimi şərəfli vəzifəni yerinə yetirdiyim üçün qürur duyuram. Çünki torpaqlarımızın hər qarışı bizim üçün doğma və əzizdir. Bu torpaqlar bizlərə qəhrəman əcdadlarımızdan əmanət qalıbdır. Əmanətə isə göz bəbəyi kimi sahib çıxmalıyıq. Müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək üçün isə müntəzəm olaraq peşəkarlığımızı daha da artırırıq. Əminliklə deyə bilərəm ki, qarşıya qoyulan istənilən tapşırıqları asanlıqla yerinə yetirməyə qadirik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan Vətən müharibəsi isə bunun bariz nümunəsidir. Biz bununla kifayətlənən deyilik. Keçirilən dərs, məşğələ və təlimlərlə gücümüzə güc qatıb daha da peşəkarlaşacaq və yeni uğurlara imza atacağıq.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

Məişət

# Əsgərlərin məişət şəraiti yüksək səviyyədədir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında digər sahələrdə olduğu kimi, Azərbaycan Ordusunun da qüdrəti gündən-günə artmaqdadır. Qətiyyətlə demək olar ki, artıq hərbi hissələrdə yaradılan şərait gənclərin orduya münasibətini tamamilə dəyişib. Hər bir gənc belə güclü ordu sıralarında xidmət etməyi, Vətənini və torpağını qorumağı özünə namus və övladlıq borcu bilərək, döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlıqlarını daha da artırır. Bunların nəticəsidir ki, Azərbaycan Ordusu hazırda beynəlxalq reytinqlərə görə dünya miqyasında ən güclü ordular sırasındadır.

Beləliklə, son vaxtlar əsgərlərimizin məişət şəraiti tamamilə yaxşılaşdırılıb, sosial təminatları yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni qazanxanalar, yeməkxanalar, yataqxanalar, camaşırxanalar, istirahət, bərbər və hamam otaqları şəxsi heyətin istifadəsinə verilib. Hərbi hissələrə ezamiyyətimiz zamanı bunların şahidi oluruq.

"N" hərbi hissəsində də müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxana diqqətimizi cəlb etdi. Ən son avadanlıqlarla təmin olunan camaşırxanada çalışan şəxsi heyətlə tanış oldum. Qadın operatorların səli-



qəli geyimi, ətraf mühitin təmiz olması göz oxşayırdı. İlk yaxınlaşdığım şəxs operator İlham Ayralov oldu. Öyrənirəm ki, o, beş ildir ki, əsgərlərin qayğısında dayanır. Camaşırxananın fəaliyyəti barədə soruşduqda bildirdi ki, hərbi qulluqçular üçün müasir tələblərə cavab verən camaşırxana tez bir müddətdə şəxsi heyətin camaşırlarının yuyulması, qurudulması, ütülənməsi həyata keçirildikdən sonra qablaşdırılaraq anbarlara göndərilir. "Camaşırxanada paltarların, dəsmalların, yataq dəstlərinin yuyulub-ütülənməsi üçün müasir aparatlar quraşdırılıb. Bu da bizim işimizi olduqca asanlaşdırır və qısa müddət ərzində bütün əməliyyatlar həyata keçirilir. Əlbəttə, istər paltarların, istərsə də yataq ləvazimatlarının vaxtında yuyulub-ütülənməsi əsgərin xidməti üçün vacibdir. Biz bunu qətiyyən unutmuruq. Əsgərlərin ləvazimatlarını istər yuyanda, istərsə də ütüləyəndə sanki öz balamın paltarla-



rını yuyuram. Xoşbəxtəm ki, mənim belə mərd, cəsur və güclü oğullarım var. Onların hər biri ilə qürur duyuram. Nə qədər ki, qollarımda güc var, onlar üçün çalışacağam. Çünki onlar bizləri qoruyurlar. Buna görə də bu işin öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edirik və hər zaman da edəcəyik".

Operator Samirə Qasımova isə yuyulan paltarları səliqə ilə ütüləmək işinə baxır. O, söhbətində bildirdi ki, əsgər balalarımızı təmiz və ütülənmiş yataq dəstləri, səliqə-sahmanlı geyimlə təmin etmək üçün çalışırıq. "Ordumuzda işləmək mənim üçün çox qürurludur. Hərbçilərimizin əziyyəti danılmazdır. Vətən müharibəsində bunu nəinki bizə, hətta bütün dünyaya göstərdilər. Biz əsgərlərimizə layiqli qulluq etməyi özümüzə mənəvi borc bilirik. Bu işin öhdəsindən gəldiyim üçün qürur duyuram".

Əsgərlərimizin qulluğunda dayanan operatorlarımızla sağollaşıb bərbər otağına yollandıq. Burada səliqə-sahman göz oxşayırdı. Otaqda bərbərə aid hər cür ləvazimat yerləşir. Bərbərin əllərinin hərəkətlərini seyr etdikdə, onun peşəkar olduğuna əmin oldum. İşinin öhdəsindən sərrast, rahat və bacarıqla gəldiyini müşahidə etdik. Hətta biz otağa daxil olanda belə fikrini işindən ayırmadı. Yalnız işini bitirdikdən sonra bizi görərək özünü təqdim etdi. Əsgər Kənan Həsənov bildirdi ki, əsgər səliqəsi həmişə önəmlidir. "Hərbi xidmətdə öyrəndiyimiz müsbət keyfiyyətlərdən biri də intizamlı, səliqəli olmaqdır. Bu baxımdan əsgər yoldaşlarımın saç düzümlərini həmişə təlimata müvafiq qaydada saxlayıram. Hər zaman çalışıram düzəltdiyim saç düzümü əsgər yoldaşlarımın ürəyincə olsun. Çünki biz burada bir ailəyik. Unutmamalıyıq ki, hər birimizin məqsədi yalnız və yalnız Vətəninə sadiq biri olmaqdır".

Saçına əl gəzdirən əsgər Nicat Cəfərov bildirdi ki, yaradılan şərait imkan verir ki, üst-başımızı daim səliqəli saxlayaq. "Saç düzümümüzü qaydaya salır, hər günün sonunda paltarlarımızı ütüləyir və bununla da sıra baxışına hazırlaşırıq. Bütün əsgər yoldaşlarım kimi mən də yaradılan şəraitdən və qayğıdan razıyam. Belə şəraiti bizlərə yaratdıqları üçün yuxarı komandanlığa əsgər yoldaşlarım adından minnətdarlığımı bildirirəm. Dövlətimizin, ordumuzun adına layiqli əsgər olmaq üçün var qüvvəmlə çalışıram və hər zamanda çalışacağam".

Saxlanc otağında da yaradılan şəraitlə yaxından tanış olmaq istədik. Burada camaşırxanadan gələn təmiz və ütülü yataq dəstlərinin, dəs-



malların, əsgərlərin ehtiyat əşyalarının da səliqə ilə yığıldığı gözümüzdən yayınmır. Köhnə əşyaları təhvil alaraq yenisini təhvil verən bölüyün baş çavuşu olan kiçik çavuş İmamqulu Dərvişovla tanış oldum. "Əsgərlərimizin şəxsi gigiyenası bizim üçün çox vacibdir. Onların bütün əşyaları hər həftə yenisi ilə əvəz olunur. Köhnələri isə camaşırxanaya göndərilir. Burada yaradılan şəraiti qoruyub-saxlamaq əsas vəzifəmizdir. Gördüyünüz bütün əşyalar əsgərlərindi. Valideynlər əmin ola bilərlər ki, övladları heç nədən korluq çəkmir, daim qayğı və diqqətlə əhatə olunurlar. Sağlam əsgər güclü ordu deməkdir".

Şəxsi əşyaların təhvil alan əsgərlərimizə yaxınlaşaraq onların fikirlərini öyrəndim.

- Hərbi xidmətə Sumqayıt şəhərindən çağırılmışam, - əsgər Həsən Həsənov bildirdi. - Yuxarı komandanlığın qayğısı ilə məişət şəraitimiz olduqca yüksək səviyyədədir. Sanitariya qaydalarına ciddi nəzarət edilir. Belə şəraitin qarşılığında xidmətimizi düzgün təşkil etməli, dövlətimizin suverenliyini qorumaq üçün canımızdan, qanımızdan keçməyə hazır olmalıyıq. Komandirlərimizin sayəsində döyüş, atəş, fiziki hazırlıqlarımızı artırırıq.



Əsgərlərin bütün tapşırıqları yerinə yetirə bilmələri üçün onların düzgün qidalanması da vacib amildir. Buna görə növbəti yollanacağımız yer əsgər yeməkxanası oldu. Yeni tikilmiş yeməkxananın dizaynı göz oxşayırdı. Girişdə yerləşən əlyuma yeri, salondakı səliqə-sahman, maraqlı təbiət təsvirləri, böyük ekranlı müasir televizor, yeni mətbəx avadanlıqları və s. diqqətimizi cəlb etdi. Yeməkxananın girişində qida rasionunda fəslə uyğun olaraq bütün qida növlərinin adı qeyd edilib. Şəxsi heyətin qida rasionuna yüksək kalorili qidalar daxildir. Əsgərlərimiz təcrübəli aşpazlar tərəfindən hazırlanan milli xörəklərlə qidalanırlar. Qida təminatının yüksək olması ilə yanaşı, burada çalışan aşpazların da bacarığı nəticəsində əsgərlərimiz evlərində olduğu kimi, dadlı və yüksək kalorili yeməklərlə qidalanırlar.

Aşpaz Xaləsər Şərifova ilə söhbət etdikdə öz fəaliyyətindən söz açdı. "Aşpaz lazım olan ərzağın miqdarını və dəyərini hesablamağı bacarmalı, sanitariya qaydalarına yüksək səviyyədə riayət etməli və mətbəxdə çalışan işçilərin standartlara riayət etdiyinə əmin olmaq məqsədilə təchiz edilən ərzağı, istifadə olunan avadanlıqları və mətbəxi daima təftiş etməli, mətbəxdə çalışan işçiləri təlimatlandırmalı, yemək hazırlamaq sahəsində olan yenilikləri və həmçinin yeni avadanlıqlardan istifadə qaydalarını onlara nümayiş



etdirməli, digər işçilərlə birlikdə ilin fəslindən və tələb olunan ədviyyatların mövcudluğundan asılı olaraq resept hazırlamalıdır. Buna görə də yaxşı aşpaz orijinal bir resept hazırlamaq, dadlı yeməyi bişirmək kimi xüsusiyyətlərə malik olmalıdır. Biz də bu istedadımızı doğma əsgərlərimizə bəxş edirik. Çalışırıq ki, hazırladığımız xörəklər onların ürəyincə olsun. Evdə analarının əlləri ilə bişirilən xörəklərdən seçilməsin. Hər zaman da çalışacağıq ki, onları öz xörəklərimizlə sevindirək və ana qay-



ğısından əskik etdirməyək".

Digər aşpaz Zülfuqar Bayramov da bildirdi ki, o da hər zaman əsgərlərimizin könüllərini xoş etmək üçün onları xörəkləri ilə sevindirəcək. "Hər zaman çalışmışam ki, əsgər balalarımıza ana qayğısı göstərək, çünki onlar evlərindən, obalarından uzaq düşərək, Vətənimizi qoruyurlar. Buna görə də onların düzgün qidalanması ən başlıca şərtlərdən biridir. Qidalanma nəinki orqanizmi enerji ilə təchiz etməyə kömək edir, həm də orqanizmdəki bütün mühüm funksiyaların fəaliyyətinə yardımçı olur. Qidalanma mövcud olmağın zəruri şərtlərindən biridir və bizim orqanlarımızın fəaliyyətində vacibdir. Düzgün qidalanma və sağlam həyat tərzi bir-birindən ayrılmaz anlayışlardır. Əsgərlərimizin qidalanması ən yüksək səviyyədə olmalıdır. Çünki məhz onlar xalqımıza Böyük Qələbə gününü bəxş etdilər".

Şahidi olduğumuz yüksək məişət şəraiti bir daha sübut etdi ki, dövlət rəhbərliyi tərəfindən hər bir hərbi qulluqçuya yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin məişət şəraitinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində aparılan işlər planlı şəkildə davam etdirilir. Bu amillər isə əsgərin mənəvi-psixoloji hazırlıqlarının və döyüş ruhlarının yüksəldilməsinə köməklik göstərir.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: Xocalı soyqırımı - yaddaşlardan silinməyən əsrin faciəsi

**Suallar:**

**1. Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət.**

**2. 26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi.**

**3. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması.**

### Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət

Ötən əsrin 90-cı illərində Azərbaycan öz tarixinin ən mürəkkəb siyasi təlatümlərini yaşayıb. Keçmiş imperiya (SSRİ) qandallarından qurtulmaq və müstəqillik yolunu seçməklə Azərbaycan öz tarixi inkişaf kursunu müəyyənləşdirdi. Azərbaycanın müstəqilliyi yolunda ilk addımları keçmiş imperiya (SSRİ) qüvvələri və yüz illərlə ölkəmizə qarşı məkrli planlar həyata keçirən Ermənistanın şovinist, bədbin niyyətləri ilə üzləşdi. Erməni millətçi-şovinistləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən (1905-1907, 1918, 1947-1948) etnik təmizləmə, soyqırımı siyasətinin növbəti təzahürü 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş soyqırımı aktı idi. Ermənistan silahlı qüvvələri və o zaman Sovet qoşunlarının Xankəndi şəhərindəki 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə Azərbaycanın Xocalı şəhərinə hücum edərək, azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırım aktı ümumən bəşəriyyətə, insanlığa qarşı törədilmiş ən qatı cinayətlərdən biri kimi tarixə həkk olunmuşdur.

Ermənistan 1988-ci ildən Qarabağ iddiası ilə Azərbaycana qarşı növbəti təcavüzkar siyasətinə başladı. Azərbaycan XX əsrin əvvəllərindən bəri bir neçə dəfə bu cür təcavüzə, soyqırımına məruz qalsa da, növbəti dalğaya hazır deyildi. 1988-ci il fevralın 13-də Xankəndi şəhərində ermənilər Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə mitinqə çıxdılar. Bu faktiki olaraq böyük münaqişənin ilk siqnalı idi. Həmin il fevralın 21-də Əsgəran rayonunda iki azərbaycanlının ölümü faciələr silsiləsinin ilk halqası oldu. Bu dövrdə Qafqazın mədəni beşiyi sayılan Qarabağın həyatında ciddi dəyişikliklər müşahidə olunurdu. Belə ki, burada qatı erməni millətçiləri olan və türklərə-azərbaycanlılara dərin nifrəti ilə fərqlənən bir sıra erməni yazıçı, şair və ziyalılarına yubileylər keçirilir, tez-tez onlarla görüşlər təşkil edilirdi. Bundan başqa erməni daşnakçı "Krunk" və "Daşnaksütyun" cəmiyyətləri Qarabağda açıq-aşkar anti-Azərbaycan fəaliyyətinə başladı. 1989-cu ildə Ermənistan SSRİ-nin ali sovetinin Qarabağın birləşdirilməsi haqda qərarı vəziyyəti daha da gərginləşdirdi. Artıq tez-tez silah səsləri eşidilir, öldürülən dinc azərbaycanlı sakinlərin sayı artırdı. Mərkəzi hakimiyyətin zəifliyi, hadisələrə müdaxilə etməməsi bu işin nəticələrini daha da ağırlaşdırırdı. Artıq ermənilər mitinqlərlə, bəyanatlarla kifayətlənmir və silahlı mübarizəyə başlayırdılar. Onları bu işdə ruhlandıran isə Qorbaçov hakimiyyəti (SSRİ) və onun yürütdüyü siyasət idi.

Xocalının işğalına gedən yol Tuğ və Sələkətin kəndlərinin işğalından başladı. Belə ki, bu kəndlər 1991-ci il oktyabrın 30-da, Xocavənd isə noyabrın 19-da Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildi. 1992-ci il yanvarın 10-da Axullu kəndi və onun ardından fevralın 11-dən 12-nə keçən gecə isə Quşçular və Malıbəyli kəndləri işğal edildi. Xocalını işğal etmək üçün bu iki kəndin ələ keçirilməsi erməni terrorçuları üçün strateji əhəmiyyət daşıyırdı. Bir neçə gün sonra isə (17 fevralda) Qaradağlı kəndi ermənilər tərəfindən zəbt edildi. 1991-ci il hadisələri Qarabağ ətrafında gedən proseslərin mahiyyətini açdı. Azərbaycan Ermənistan tərəfindən gizlədilməyən təcavüz faktı qarşısında qaldı.

1992-ci ildə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Azərbaycan Respublikasının o vaxtkı Prezidenti Ayaz Mütəllibov respublikanın MDB (Müstəqil Dövlətlər Birliyi) çərçivəsində Moskvanın maraqları orbitində qalmasına çalışır və milli ordunun yaradılmasını ləngidirdi. Bunun nəticəsidir ki, 1992-ci ilin əvvəllərində Azərbaycan Ordusu tam silahlanmamış iki tabordan (təxminən 300 nəfər), yaxşı təlim keçməmiş, vahid komandanlığı olmayan DİN, MTN, XTMD (Xüsusi Təyinatlı Milis Dəstəsi) bölmələrindən, yerli özünümüdafiə qüvvələrindən və müxtəlif partiyaların könüllülərindən təşkil olunmuş dəstələrdən (ümumi sayı cəmi 2000 nəfərə qədər) ibarət idi. Bu şəraitdə erməni silahlı dəstələrinin şəxsi heyəti sayca azərbaycanlılardan çox olmasa da, havadarları tərəfindən daha yaxşı təşkil olunmuş, silahlanmış və təlim keçmişdi. Bununla yanaşı keçmiş imperiyanın (SSRİ) silahlı qüvvələrinin Xankəndi şəhərində yerləşən 366-cı alayının 129 zabit və gizirinin 49-u milliyyətcə erməni idi. Həmin alayın 2-ci taboruna isə milliyyətcə erməni olan mayor Seyran Ohanyan rəhbərlik edirdi.

Artıq 1992-ci ilin fevralında Qarabağda havadarlarının köməyi ilə silahlandırılmış, təlim keçmiş, Azərbaycanın ərazisində işğalçı müharibə aparmağa qadir erməni ordu bölmələri var idi. Bu dövrdən etibarən ermənilər Qarabağda və ondan kənarda azərbaycanlılar yaşayan iri yaşayış məntəqələrinin işğalı planının həyata keçirilməsinə başladılar. Ermənistanla quru yol əlaqələri olmayan Qarabağ erməniləri ancaq hava yolu ilə kömək ala bilərdilər. Ona görə də ermənilər Qarabağda tələsik yeni vertolyot meydançaları hazırlayır, Gorus-Xankəndi və Gorus-Hadrut reysləri təşkil olunurdu. Vəziyyətə tam nəzarət etmək, eləcə də bütün istiqamətlərdə maneəsiz hərəkət etmək və Qarabağda olan yeganə aeroportu ələ keçirmək üçün Xankəndi ilə Əsgəran arasında yerləşən, azərbaycanlıların yaşadıqları Xocalı şəhərini ermənilər ələ keçirməli idilər.

### 26 Fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis-Ayrım kəndinin, Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xocalı Qarabağ hadisələri başlanmazdan əvvəl içindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən, Qarabağda yeganə təyyarə meydanı olan bir qəsəbə idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. 1991-ci ilin ortalarında artıq burada 6300 insan yaşayırdı. Həmin ilin axırında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi Xocalını tərk etdi. Faciəli fevral hadisələri ərəfəsində şəhərdə 3 mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı şəhəri ilə avtomobil nəqliyyatı əlaqəsi kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Azərbaycanla ancaq hava yolu ilə, helikopterlər vasitəsilə əlaqə saxlanırdı. Xocalıya son dəfə fevralın 13-də hərbi helikopter ərzaq və yanacaq gətirdi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi vətənini tərk etmək istəmirdi.

Xocalını aeroportun komendantı milis kapitanı Əlif Hacıyevin rəhbərliyi ilə sərəncamında olan 1 "Alazan" tipli artilleriya qurğusu, 3 zirehli transportyor, yalnız atıcı silahlarla silahlanmış Milli ordunun, Xüsusi Təyinatlı Milis Dəstəsinin və yerli özünümüdafiə dəstəsinin döyüşçülərindən ibarət 160 nəfərlik qüvvə qoruyurdu. 1992-ci il fevralın 26-sı Azərbaycan tarixinə ən qanlı səhifələrindən biri kimi yazıldı. Fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri keçmiş imperiyanın (SSRİ) 366-cı alayının köməyi ilə Xocalı şəhərini işğal edərək dağıtdılar və yerli əhaliyə qarşı əsil genosid aktı törətdilər. Erməni yaraqlıları 366-cı alayın zabit və əsgərlərinin köməyilə şəhəri tanklarla və digər zirehli texnika ilə mühasirəyə alıb, bu qədim diyarın dinc əhalisini kütləvi şəkildə qırmağa başladılar. Xocalının müdafiəçiləri sayca qat-qat üstün, yaxşı silahlanmış, tankların və digər zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənin qarşısını almaq üçün fədakarlıqla döyüşdülər və dinc əhalinin şəhərdən çıxa bilməsinə şərait yaratdılar. Şəhərin müdafiəçiləri bu qeyri-bərabər döyüşdə öz mövqelərindən geri çəkilmədilər, onlardan bir çoxu əsl qəhrəman kimi döyüşdə həlak oldu. Səhərə qədər gedən döyüşdə onlarla döyüşçümüz qəhrəmancasına həlak oldu. Təəssüf ki, döyüşçülərimizin qanı bahasına şəhərdən çıxmağa müvəffəq olan dinc əhalinin çox az hissəsi xilas ola bildi. Yalnız Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş, beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması ilə müşayiət olunan dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 83-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb.

Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, Qarabağın azərbaycanlı əhalisinin bir hissəni məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir. Xocalı faciəsi azərbaycanlıların qəlbinə qorxu, ermənilərin üstünlüyünə inam hissləri səpməmiş, əksinə, qisasçılıq hisslərini alovlandırmışdır. 2020-ci ilin sentyabrın 27-nə kimi səngərlərdə, mövqelərdə döyüş növbətçiliyi aparan əsgərlər, hərbi xidmətdən tərxis olunan hər bir Azərbaycan vətəndaşı döyüşlər başlayanda döyüşənlərin sırasında olmaqla o müdhiş gecədə həlak olan vətəndaşlarımızın, qocaların, qadınların, uşaqların, əsir düşmüş, alçaldıcı təhqirlərə məruz qalmış, namusu tapdalanmış qız-gəlinlərin qisasının alınması amalı ilə yaşayırdılar.

### Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması

Bütün dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilməsi yönündə işlərə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən başlanılıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dövlət rəhbərliyinə qayıtdıqdan sonra onun təşəbbüsü ilə 1994-cü ildə Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. 26 fevral günü - "Xocalı soyqırımı və milli matəm günü" kimi qəbul olunub və bütün beynəlxalq təşkilatlar bu barədə məlumatlandırıldı.

Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması, Azərbaycan xalqı və ümumən insanlıq əleyhinə törədilmiş son dərəcə ağır hərbi cinayətin beynəlxalq miqyasda siyasi-hüquqi qiymətin alması istiqamətində fəaliyyət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu xarici siyasət kursunda mühüm yer tutur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illər ərzində Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyət nəticəsində çox ciddi uğurlar əldə olunub. Xocalı soyqırımı ilə bağlı tarixi faktlar barədə beynəlxalq ictimaiyyətin dolğun şəkildə məlumatlandırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlanan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının xüsusi əhəmiyyəti vardır. Kampaniya ilk günlərdən Xocalı soyqırımının, Ermənistan-Azərbaycan, keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin tarixi səbəbləri və nəticələri ilə bağlı beynəlxalq maarifləndirmənin artırılmasına, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsinə, sağ qalmış ailələrə dəstək göstərilməsinə, bu hadisələrin yaddaşlarda yaşanmasına, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib.

Artıq Xocalı hadisələrini rəsmi şəkildə soyqırımı kimi tanıyan dövlətlərin sayı ildən-ilə artmaqdadır. Aparılan ümumi işin nəticəsi olaraq bu gün dünyanın bir çox ölkə və təşkilatları Xocalı hadisələrini soyqırımı kimi tanıyıb. Meksika Senatı Xocalı faciəsini soyqırımı adlandırıb. Pakistan soyqırımı pisləyən qətnamə qəbul edib. Kolumbiya parlamenti faciəni soyqırımı kimi tanıyıb. Çexiya, Bosniya və Hersoqavina parlamentləri Xocalı soyqırımını rəsmən tanıyıb. Peru, Honduras, Cibuti parlamenti, Amerika Birləşmiş Ştatlarının 24 ştatı Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib. Bundan başqa 2010-cu ildə İslam Konfransı Təşkilatı (İslam Əməkdaşlıq Təşkilatı) da Xocalı qətliamını soyqırımı və insanlığa qarşı cinayət kimi tanıyıb və bu poses davam etməkdədir.

Xocalı soyqırımı barədə həqiqətlərin dünyaya yayılması Vətən müharibəsi gedişində ədalətli mövqeyimizin dəstəklənməsi baxımından xüsusi siyasi əhəmiyyət daşıyıb. "Xocalıya ədalət!" çərçivəsində illərlə davam etdirilən məqsədyönlü işlərin Böyük Qələbəmizdə xüsusi yeri vardır. 44 günlük Vətən müharibəsində, bir günlük lokal xarakterli antiterror tədbirlərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tarixi torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzü tam bərpa etdi və Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı erməni terrorçularının törətdiyi vəhşiliklərin qisası alındı. Bu gün bayrağımız artıq Xocalıda və Azərbaycanın bütün bölgələrində vüqarla dalğalanır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Əsgərlərimiz vətənpərvər ruhda formalaşırlar



Vətənpərvərlik torpağa, Vətənə bağlılığı ifadə edir. Bu hiss insanda anadangəlmə olsa da, digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Əvvəlcə bu hiss valideynlər tərəfindən aşılanır. Orta məktəb illərində isə müəllimlər tərəfindən vətənpərvərlik hissinin təbliği və Vətənə olan ülvi hisslər daha da möhkəmləndirilir. Hərbi xidmət dövründə isə bu hiss ən pik həddə çatdırılır. Peşəkar komandirlərin rəhbərliyi ilə keçirilən ictimai-siyasi hazırlıq dərsləri, vətənpərvərlik haqqında edilən söhbətlər, asudə vaxtlar sayəsində hərb tariximizi, tarixi qəhrəmanlarımız haqqında məlumatları dərindən mənimsəyən gənclərimiz təcrübəli və Vətənə bağlı əsgər kimi formalaşırlar.

"N" hərbi hissəsində bu cür tədbirlərin gedişatının şahidi olduq. Kapitan Yaşar Əliyev şəxsi heyətlə vətənpərvərlik haqqında söhbət edir, tariximizdən, sərkərdələrimizdən, qəhrəman oğullarımızdan, hərb tariximizə qızıl hərflərlə həkk olunan şanlı Vətən müharibəsindən və rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi digər döyüş əməliyyatlarından söhbət edirdi. Zabit bildirdi ki, vətənpərvərlik eli, obası üçün yaşayıb-yaşatmaqdır və bu gün üçün deyil, gələcək üçün hər an xalqın, millətin gələcəyini düşünməkdir.

- Vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənpərvərlik - Vətənə sadiq olmaq, Ana Vətəni sevmək və torpağa bağlı olmaqdır. Belə ki, Vətən uğrunda döyüşmək, onu sevmək, qorumaq hər bir Azərbaycan gəncinin əsas vəzifəsidir. Onlar isə öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan və 44 gün davam edən Vətən müharibəsi bunun bariz nümunəsidir. Canı bahasına tarix yazan qəhrəman oğullarımızın igidliyi, qorxmazlığı və şücaəti bütün dünyaya sübut etdi ki, yurdumuzda Vətən torpaqlarının azadlığı uğrunda canından keçməyə hazır olmayan şəxs yoxdur. Vətənə məhəbbətlə böyüyən, torpaqlarımızın müdafiəsini özünə şərəf və övladlıq borcu bilən oğullarımız Vətənimizin çətin anında gözünü qırpmadan müharibəyə yollandılar. Qarşısında əngəl tanımayan, mənfur düşmən əsgərini məhv edə-edə mətin addımlarla irəliləyən oğullarımız işğalçılığa son qoydular. Heç bir döyüş itkisiz olmaz, Vətən müharibəsi də belə oldu. Haqq savaşımızda mənfur düşmən gülləsinə tuş gələrək, Vətən yolunda ən ali zirvə sayılan şəhidlik məqamına yüksəldilər. Məhz onların sayəsində bu qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı, Azərbaycan xalqı böyük qələbə gününün sevincini yaşadı. Uzun illərdir həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşduq. Sinəsini düşmən gülləsinə sipər edən neçə-neçə Vətən sədaqətli, vəzifəsini layiqincə yerinə yetirən qeyrətli Vətən oğulları öz vətənpərvərliyi, cəsurluğu və şücaəti ilə gələcək nəsillərə örnək olacaq bir qəhrəmanlıq salnaməsi yazdılar. Əcdadlarımızın əmanəti olan Vətən torpaqlarını azad edərək bizlərə əmanət etdilər. O torpaqlar ki, hər addımı qəhrəman, vətənpərvər oğulların alın tərinin zəhməti, canı bahasına azad edildi. Burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin sözlərini xatırlamaq istəyirəm: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz Vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək, hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır". Bəli, bu gün Ulu Öndərin göstərdiyi yolu sədaqətlə davam edən gənclər milli vətənpərvərlik ruhunda tərbiyə olunur və ölkəmizin daha da inkişafına öz töhfələrini verirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri olan gənclər arasında vətənpərvərlik hisslərinin yüksəldilməsi bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Əsgər Əlisoltan Əzizov dedi ki, əcdadlarımızdan əmanət qalan doğma Azərbaycanımız bizim ana Vətənimizdir. Vətən isə hər şeydən öncə gələn və hər şeydən müqəddəs olandır. Bu Vətən uğrunda neçə qəhrəman oğullarımız şəhid olub, neçə qəhrəman oğullarımız döyüşlərdə yaralanıb. Məhz onların cəsurluğu sayəsində bu gün Vətənimizin hər bir qarışında şanlı bayrağımız dalğalanır. Onların yolunu davam etdirmək və Vətənə layiqli əsgər olmaq isə hər birimizin müqəddəs borcudur. Mən də öz növbəmdə yalnız xidmətim dövründə deyil, hər zaman Vətənimə şərəflə xidmət edəcək, ona layiqli əsgər və vətəndaş olacağam.

Əsgərlər İsmayıl Bağırzadə, Nihad Əliyev, Ümüd Əsədov və digərləri keçirilən dərslərdən, vətənpərvərlikdən, hərbi hissədə onlar üçün yaradılan şəraitdən və xidmətlərindən uzun-uzadı söhbət etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətənin keşiyində duran igid



"N" hərbi hissəsində nümunəvi xidməti ilə seçilən çavuş Elmar Alıyevlə yaxından tanış oldum. Onun vəzifəsinin öhdəsindən uğurla gələn, xidmətini düzgün təşkil edən birisi olduğunu gördüm. Elmar uşaqlıqdan hərbçi olmaq arzusunda olduğunu bildirib söhbətə başladı. "Uşaq vaxtlarımda ailəmizdə hər kəs əmim və babamın keçdiyi döyüş yolu haqqından söhbətlər edərdi. Atamın bizə dediyi sözlər heç bir zaman yadımdan çıxmayacaqdır. "O zaman intizamlı ordumuz, silah və texnikamız yetərincə güclü səviyyədə deyildi. Lakin buna baxmayaraq mərd oğullarımız düşmən üzərinə atılırdılar. Torpaqlarımızın hər qarışı üçün mərdliklə döyüşürdülər. Hər zaman babam mənə deyərdi ki, könlündə Vətən sevgisi olan hər kəsin qarşısında düşmən məğlubiyyətə düçardır". Belə söhbətləri dinlədikcə mənim hərbçi olmaq arzum gündən-günə artırdı. Nəhayət ki, hərbi xidmətə çağırıldım. Xidmətim dövründə hərbi peşənin müqəddəsliyini daha yaxşı anladım. Həmçinin komandirlərimin davranışları, bizimlə rəftarı, mənəvi-əxlaqi keyfiyyətləri, Vətənə bağlılıqları bu peşəyə olan sevgimi daha da artırdı. Hərbi xidmətimi başa vurmağa az qalmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu hazırlığı kursuna getmək üçün müraciət etdim və bununla da şərəfli yolda ilk addımlarımı atdım".

Bu gün çavuş Elmar Alıyev əldə silah Vətən torpaqlarının keşiyində dayanır. Bir hərbçi, bir vətəndaş kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. "Azərbaycan Ordusunda xidmət etməyim bugünkü gündə mənim üçün qürurverici bir hissdir. Çünki bizim ordu artıq dünya tarixində bir iz qoyub. 44 gün ərzində bütün dünya ölkələrində ancaq Azərbaycan Ordusunun gücündən danışılırdı. Hər kəsə sübut etdik ki, Azərbaycan dövlətinin müharibədən sonra belə öz torpaqlarının müdafiəsində dayanmağa qadir bir ordusu var. Və mən bu orduda xidmət etməyi, Vətənimə, xalqıma layiqli olmağı özümə borc bilirəm".

Bu bir daha sübut edir ki, gəncliyimiz vətənpərvər ruhda böyüyür.

Həmsöhbətimiz, həmçinin rəhbərliyə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirdi.

- Üzərimə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşürəm. Bu vəzifələri həm də mənəvi borc biliрəm. Daim ölkəmizin müdafiəsində durmağa hazıram. Bütün təminatlarımız da qaydasındadır. Dövlət rəhbərliyi uğurlu xidmətimiz üçün hər cür şərait yaradıb. Belə diqqət və qayğı hər birimizə yüksək döyüş ruhu aşılayır, xidməti düzgün təşkil etməyimizə zəmin yaradır, - Elmar dedi.

Daha sonra bildirdi ki, şəxsi heyətimizin hazırlığı yüksək səviyyədədir. Birlikdə peşəkarlığımızı, döyüş hazırlığımızı artırmaq məqsədilə təlimlərdə iştirak edirik. Mənəvi-psixoloji vəziyyətimizi də daim yüksək səviyyədədir. Əsgərlərin yetərincə hazırlıqlı olmaqları üçün onlara məşğələlər keçirik. Fiziki hazırlıq, sıra hazırlığı məşğələləri ilə yanaşı, nizamnamələri onlara öyrədirik, çünki Azərbaycan Ordusunda hərbçi olmaq intizamlı olmaq deməkdir.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə İŞİD-in altı üzvü saxlanılıb




Türkiyədə İŞİD terror təşkilatının ölkədəki üzvlərinin saxlanılması istiqamətində əməliyyat keçirilib.

Türkiyənin Adana vilayətində keçirilən əməliyyat nəticəsində İnterpol tərəfindən qırmızı bülletenlə axtarışa verilən altı İŞİD üzvü saxlanılıb.

Qanunsuz yollarla Türkiyəyə daxil olan bu şəxslərin İraq və Suriyada silahlı fəaliyyətlərdə iştirak etdikləri bildirilir.

Məhkəməyə çıxarılan altı nəfərdən ikisi həbs, dördü isə ekstradisiya edilib.

## Böyük Britaniya esminesi Qırmızı dənizdə husilərin hücumunu dəf edib



Böyük Britaniya Hərbi Dəniz Qüvvələrinə məxsus "Diamond" esminesi Yəmənin "Ənsar Allah" (Husilər) üsyançı hərəkatı tərəfindən Qırmızı dənizdə buraxılan pilotsuz uçuş aparatını (PUA) məhv edib.

Bu barədə Böyük Britaniyanın Müdafiə Nazirliyi məlumat yayıb.

"Dünən "Diamond" Qırmızı dənizdə husilərin dron hücumunu "Sea Viper" raket sisteminin köməyi ilə uğurla dəf etdi. Ekipaj və ya gəmidə xəsarət alan olmadı. Bu cür hücumlar tamamilə qəbuledilməzdir. Bizim məsuliyyətimiz Qırmızı dənizdə naviqasiya azadlığını qorumaqdır", - deyə məlumatda bildirilib.

## ABŞ İsrailə humanitar dəhlizlərlə bağlı təzyiq göstərməyi planlaşdırır



ABŞ administrasiyası İsraili Qəzza zolağında hərbi əməliyyatların miqyasını azaltmağa inandırmaq üçün bu ölkəyə silah satışını ləngidə və ya dayandıra bilər.

Bu barədə "NBC News" telekanalı məlumat yayıb.

Hələlik heç bir qərarın verilmədiyi qeyd edilir.

Telekanal bildirir ki, Amerika hakimiyyəti yəhudi dövlətinə humanitar dəhlizlər açmaq və Qəzzanın mülki əhalisinə daha çox yardım göstərmək üçün təzyiq göstərməyi planlaşdırır.

Qeyd edilir ki, ABŞ bu haqda İsraili bir neçə həftə əvvəl Qəzzada taktikasını dəyişməyə və mülki itkiləri minimuma endirmək üçün səy göstərməyə inandıra bilmədikdən sonra qərara gəlib.

## Britaniya ordusunun sayı 2000-ci ildən bəri 65 min nəfər azalıb



Böyük Britaniya Silahlı Qüvvələrinin sayı 2000-ci ildən bəri 31,7 faiz (65,5 min nəfərdən çox) azalıb.

"UK Defence Journal" nəşri bu barədə parlamentin məlumatlarına istinadla məlumat yayıb. Parlamentdə keçirilən dinləmələrdə müdafiə nazirinin müavini Endryu Murison Silahlı Qüvvələrin sayının 2000-ci ildəki 207 min nəfərdən 141,5 min nəfərə endiyini bildirib.

Məlumata görə, Quru Qoşunlarının sayı 29,79 faiz (109 min 600 nəfərdən 76 min 950 nəfərədək), Hərbi Dəniz Qüvvələri və Dəniz Korpusundakı hərbçilərin sayı 23,86 faiz (42 min 800 nəfərdən 32 min 590 nəfərədək), Hərbi Hava Qüvvələrində şəxsi heyətin sayı isə 41,5 faiz (54 min 600 nəfərdən 54 min 600 nəfərədək) azalıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

## *Fiziki hazırlıq*

# İdmanda peşəkarlıq nümayiş etdirən məğrur əsgərlərimiz

*"N" hərbi hissəsində olduğumuz zaman günün nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələsinin gedişatı ilə yaxından tanış olduq. Qrup rəhbəri kapitan Coşqun Əfəndiyevin nəzarəti altında məğrur əsgərlərimiz verilən bütün tapşırıqların öhdəsindən asanlıqla gəlir, idman vərdişlərini daha da artırırdılar. Dərs prosesi bitdikdən sonra zabitə yaxınlaşıb, həmsöhbət olduq.*



O bildirdi ki, fiziki hazırlıq hərbi qulluqçuların təlim və döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə döyüş hazırlığının, hərbi təlimin mühüm və ayrılmaz hissəsi, eyni zamanda, ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsi istiqamətlərindən biridir. Daha sonra fiziki hazırlığın məqsədindən danışan kapitan C.Əfəndiyev dedi ki, bu məşğələnin məqsədi hərbi qulluqçuların silah və döyüş texnikasına yiyələnməsi, ondan döyüşdə səmərəli istifadə etməsi, döyüş fəaliyyətinin fiziki güc tələb edən ağırlığına, psixoloji gərginliyə, əlverişsiz faktorlara mətanətlə sinə gərmək üçün fiziki hazırlığının təmin edilməsindən ibarətdir. Məşğələ rəhbəri fiziki hazırlığın vəzifələrinə də toxunaraq əlavə etdi ki, bu məşğələnin vəzifəsi şəxsi heyətin sağlamlığının möhkəmləndirilməsi, mətinlik və müntəzəm fiziki inkişafın əldə olunması, dərə-təpəli ərazidə piyada hərəkət zamanı, sıçrama yürüşlərində, təbii və süni maneələrin dəf olunmasında, əlbəyaxa döyüşlərində, eyni zamanda, hərbi təchizatla üzmə zamanı əsas hərbi-tətbiqi vərdişlərinin yaradılması və təkmilləşdirilməsi, həmçinin hərbi peşəkar fəaliyyətdə və ətraf mühitdə müəyyən əlverişsiz faktorların təsirinə qarşı orqanizmin dözümlüyünü təmin edən xüsusi keyfiyyətlərin yaradılmasıdır.

- Fiziki hazırlıqla məşğul olmağın bir çox faydası var. Həm fiziki, həm də ruhi sağlamlığa müsbət təsir göstərən idman aktiv həyat tərzinin tərkib hissəsidir. Müntəzəm məşq güc, qüvvət, iradə və ən əsası özünə inamı artırmaqla, sağlamlığa, gümrah və enerjili olmağa kömək etməklə yanaşı, xroniki xəstəliklər riskini də azaldır. İdman, həmçinin əzələ və sümük sağlamlığını yaxşılaşdırır, immunitet sistemini gücləndirir. Bundan əlavə, idman stresi azaldır, əhval-ruhiyyəni yaxşılaşdırır və beyin funksiyalarını dəstəkləyir. İdman etmək ümumi sağlamlığı və həyat keyfiyyətini yaxşılaşdırmaqla uzunmüddətli sağlam həyat tərzi seçimi kimi seçilir.

Daha sonra verilən bütün tapşırıqları nöqsansız və anında icra edən məğrur Vətən müdafiəçilərinə yaxınlaşıb, düşüncələrini qələmə aldıq. İlk həmsöhbətim əsgər Murad Quliyev oldu. Hərbi hissədə yaradılan şəraitdən söz açan Murad dedi ki, yuxarı komandanlığın göstərişinə əsasən, hərbi hissəmizdə fiziki hazırlıq səviyyəmizi artırmaq üçün bütün şərait yaradılıb. Müasir və son model idman alətləri ilə təchiz olunan idman şəhərciyi sayəsində güc və qüvvətimizi artırırıq. Peşəkar komandirlərimizin rəhbərliyi ilə keçirilən məşğələdə heç bir çətinlik çəkmədən istənilən tapşırıqları müvəffəqiyyətlə icra edə bilirik. Hər gün daha da güclü olmalıyıq ki, doğma Vətənimizin torpaqlarını istənilən hücum və təxribatlardan qoruya bilək.

- Günün nizam qaydalarına uyğun olaraq komandirlərimizin rəhbərliyi altında səhər və axşam fiziki hazırlıq məşğələsi keçirilir. Onlar əllərindən gələni edirlər ki, hər birimiz daha da güclü olaq. Hər bir idman təmrinini uğurla həyata keçirmək üçün bilik və bacarıqlarını da bizimlə bölüşürlər. Komandirlərimiz sayəsində idmana olan həvəsimizlə yanaşı, fiziki imkanlarımız da gündən-günə artır. Hərbi xidmətdən sonra da idmanla məşğul olmağa davam edəcəm, - əsgər Nihad Süleymanov dedi.

Əsgər Əkbər Abdullayev də fikirlərini bizimlə bölüşərək dedi ki, orqanizmin daha da yaxşılaşdırılması və daim formada saxlanılması üçün idmanın rolu danılmazdır. Bundan əlavə, idman yalnız bədəni yaxşılaşdırmaq üçün deyil, eyni zamanda, güc, qüvvət, iradə və özünəinamı artırır. Buna görə də mən hələ kiçik yaşlarımdan idmana böyük maraq göstərmişəm. Daim öz üzərimdə çalışır, məşqlər edərdim. Ordu sıralarına qatıldıqdan sonra da komandirlərimizin nəzarəti altında məşqlərimi inamla davam etdirirəm. Günün nizam qaydalarına uyğun olaraq hər gün fiziki hazırlıq məşqləri ilə məşğul oluruq. Bunun nəticəsidir ki, təlimlər zamanı verilən əmr və tapşırıqların öhdəsindən layiqincə gəlirəm.

Əsgərlər Müşfiq İsmayılov, Əbülfəz Quliyev və digərləri idmana olan maraqlarından, hərbi hissədə yaradılan şəraitdən, komandirlərinin rəhbərliyi ilə idmanla həvəslə və yorulmadan məşğul olduqlarından uzun-uzadı söhbət etdilər. Sonda isə Ana Vətəni sevməyi, onun uğrunda istənilən an canından keçməyə hazır olduqlarını və Vətənə layiqli xidmət etməyi özlərinə övladlıq borcu bildiklərini qeyd etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## *Maraq dünyamız*

# Barmaq izini xatırladan ada



Adriatik dənizində yerləşən və uzunluğu 23 kilometrdən çox olan divarlara malik bu kiçik ada Xorvatiyaya məxsusdur.

Dalmasiya tipli sahillərdə (sahillərə paralel uzanmış dağların ətəklərində çökək hissələrin dəniz suları altında qalması nəticəsində əmələ gəlir) yerləşən bu ada Baljenak adasıdır. Onun sahəsi 0.14 kvadratmetr, sahil uzunluğu isə 1431 metrdir.

Adada qədim alçaqboylu daş divarlardan ibarət şəbəkənin mövcudluğu səbəbi ilə havadan çəkilən görüntüsünün barmaq izini xatırlatması, bu adanı UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi üçün Xorvatiyanın rəsmi qurumlara müraciətinə səbəb olub. Bu müraciət isə müsbət cavablandırılıb.

Baljenakda bu görüntünün formalaşmasının isə bir neçə səbəbi var. Yaxınlıqdakı Kapriye adasının bir vaxtlar burada fəaliyyət göstərən sakinləri kənd təsərrüfatı sahələri ilə məşğul olublar. Onlar daşları bir-birinin üzərinə qalaqlamaqla divar hörürdülər. Bu divarlar isə üzüm bağlarını, zeytun bağlarını və müxtəlif əkin sahələrini bir-birindən ayırmaq üçün ucaldılmışdı. Digər bir səbəb isə bu təsərrüfat sahələrini küləyin dağıdıcı təsirindən qorumaq idi.

Maraqlıdır ki, labirint formalı tikililərə digər Avropa ölkələrində rast gəlinsə belə, Baljenak ən çox bar-



maq izini xatırladan görüntüyə malik adadır.

Daş divarların XIX əsrdə tikildiyi güman olunur. Həmçinin Osmanlı fəthləri zamanı xristianlar üçün təhlükəsiz sığınacaq yeri sayılan bu adada mövcud divarların bəzi hissələrinin daha da qədim olma ehtimalı vardır.

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan qolfçusu Türkiyədə gümüş medal qazanıb




Azərbaycan qolfçusu Emin Rzayev "Turkish Open-2024" yarışında gümüş medal qazanıb.

O, 8 yaşlı idmançılar arasında ikinci yerə layiq görülüb.

Qeyd edək ki, yarış Türkiyənin Antalya şəhərində təşkil olunub.

## Azərbaycanın daha bir cüdoçusu Qran-Pri turnirində bürünc medal qazanıb




Azərbaycanın daha bir cüdoçusu Portuqaliyanın Odivelaş şəhərində keçirilən Qran-Pri turnirində medal qazanıb.

90 kiloqram çəki dərəcəsində mübarizə aparan Elcan Hacıyev bürünc medal uğrunda görüşdə israilli Quy Qurevitçə qalib gələrək fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Eyni çəkidəki Vüqar Talıbov və Uşangi Kokauri (+100 kiloqram) isə yarışı medalsız başa vurublar.

Qeyd edək ki, Qran-Pri turnirində digər idmançılarımız - Yaşar Nəcəfov (66 kiloqram) gümüş, Turan Bayramov (60 kiloqram), Kamran Süleymanov (66 kiloqram), Səid Mollayi (81 kiloqram) bürünc medalın sahibi olublar.

## Ötən il Azərbaycan Stronqmen Federasiyasının idmançıları 41 medal qazanıblar



Azərbaycan Stronqmen Federasiyasının 2023-cü ilin yekunlarına həsr olunmuş iclası keçirilib.

Bu barədə federasiyadan məlumat verilib. Federasiyanın prezidenti Bəxtiyar Quliyev ötən il əldə olunan nailiyyətlər və idmançıların qazandığı uğurlar barədə məlumat verib.

Ötən il federasiyanın idmançıları 7 beynəlxalq turnirdə güclərini sınayıblar. Həmçinin Azərbaycan Stronqmen Federasiyasının təşkilatçılığı ilə ölkəmizdə 6 yarış təşkil olunub. İdmançılar beynəlxalq turnirlərdə 35 qızıl, 3 gümüş və 3 bürünc olmaqla ümumilikdə 41 medal əldə ediblər. Ötən ilin yerli yarışlarına noyabrda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən turnirlə yekun vurulub.

Beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində ötən il mühüm addımların atıldığını diqqətə çatdıran federasiya prezidenti Dünya Stronqmen Federasiyasına vitse-prezident təyin olunmasını Azərbaycan idmanına növbəti etimadın göstəricisi olduğunu bildirib.

Bəxtiyar Quliyev cari il üçün yarış təqviminin artıq hazır olduğunu diqqətə çatdıraraq qeyd edib ki, martda idmançılarımızı Qırğızıstanın paytaxtı Bişkekdə açıq Asiya çempionatı və Dubayda dünya çempionatı gözləyir. İdmançılar artıq bu iki yarışın hazırlığına start veriblər. Ölkəmizdə də yerli yarışlarla yanaşı, mötəbər beynəlxalq turnirlərin təşkili nəzərdə tutulub.

Federasiyanın bir qrup idmançısına "İdman ustası" fəxri adı təqdim olunub.

Sonda cari ilin təqvim planı, təlim-məşq toplanışları və digər məsələlər barədə müzakirələr aparılıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseynov Ülvi Fizuli oğluna məxsus AD № 0064557 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Hüsniyyə NƏSİROVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 22 Nüsxə 4646 |